

Qürurla anırıq

# Sergey Aleksandroviç Senyuşkin



***Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü, torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda döyüşlərdə azərbaycanlılarla yanaşı, digər xalqların övladları da şəhidlik zirvəsinə ucalıb və adları Azərbaycanın şanlı qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycanın Milli Qəhrəmanı Senyuşkin Sergey Aleksandroviçin xalqımız qarşısında göstərdiyi igidliklər heç vaxt unudulmayacaq. Onun qısa, lakin şərəfli ömür yolu gələcək nəsillərə örnək kimi nümunə göstəriləcək.***

Respublikamızda, Vətənin azadlığı uğrunda şəhid olanların xatirəsinə daim hörmətlə yanaşılır. Azərbaycanı özünün tarixi Vətəni sayan hər bir xalqın övladı ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etməkdən çəkinməyib. Terrorçu Ermənistanın silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsinə dözməyib, minlərlə Vətən övladı silaha sarılaraq təcavüzkar orduya qarşı vuruşub. Onların arasında kifayət qədər başqa xalqların qeyrətli övladları da olub ki, onlar işğalçı ordunun təcavüzünə qarşı əlində silah mübarizə aparıblar, şəhidlik mərtəbəsinə yüksəliblər. Bu gün Azərbaycanın milli qəhrəmanları arasında 10-dan çox qeyri-azərbaycanlı, hətta Azərbaycanda doğulmayanlar da var. Bu o deməkdir ki, qəlbi, nəbzi Azərbaycanla döyünən hər bir insan təcavüzkar Ermənistanın işğalçı siyasətilə barışmayıb və dost, qardaş harayına yetişib.

Senyuşkin Sergey Aleksandroviç 15 sentyabr 1957-ci il Rusiyanın Samara vilayətinin Sızran şəhərində anadan olub. 1974-cü il Sızran şəhər orta məktəbini bitirmişdir. Sergey burada Politexnik İnsitutuna daxil olur, 1975-ci ildən təhsilini Ali Hərbi Təyyarəçilər Məktəbində davam etdirir. 1979-cu ildə bu məktəbi müvəffəqiyyətlə bitirir. Sergey Mİ-8 və Mİ-24 vertolyotlarının uçuş proqramını peşəkar səviyyədə öyrənmişdi.

1 fevral 1992-ci ildən həyatını Azərbaycanla bağlayan Sergey hərbi hissə komandiri təyin edilib. Azərbaycan Hərbi Hava Qüvvələrinin yaradılmasında əməyi böyük olan Sergey Senyuşkin mülki təyyarəçilərə hərbçi təlimini keçməklə yanaşı, Qarabağda gedən hərbi əməliyyatlarda iştirak edərək, çox sayda erməni döyüşçüsünü məhv edib. 1992-ci il fevral ayının 26-da bir daha sübut olundu ki, erməni quldurları ən ağır cinayətlərə əl atmaqdan belə çəkinmirlər.

Xocalıda törədilən soyqırımı tarixin ən dəhşətli faciələrindən biridir. Xocalı soyqırımı zamanı xeyli dinc sakini xilas edə bilsə də, ağır yaralanıb və 29 fevral 1992-ci ildə həlak olub. Samara vilayətinin Sızran şəhərində dəfn edilib.

Həyat yoldaşı Marina Senyuşkinanın dediklərindən: "Sergey peşəkar hərbçi idi. O, Rusiyanın və MDB-nin digər yerlərində çalışmışdı. 1992-ci ildə ona Azərbaycanda iş təklif edildi. Mən o vaxt Azərbaycanı tanımırdım. Mənə bu barədə deyəndə açığı bir az tərəddüd etdim. Adətən hərbçilərin işinə qarışmaq olmazdı. O, ilin əvvəllərində Azərbaycana gəldi, təxminən 10 gündən sonra bizi gətirdi. Gələn gündən Qarabağa göndərildi. O zaman Azərbaycanda peşəkar zabit az idi. Hərbi helikopterlərdən istifadə edənlər isə demək olar ki, yox idi. Sergeyin Hərbi Hava Qüvvələrinin yaradılmasında böyük zəhməti oldu. Evə gələndə isə bizə bir kəlmə də olsun bir söz deməzdi. Xocalı faciəsi zamanı o bir neçə dəfə ora gedib, yaralı insanları təhlükəsiz yerlərə çatdırmışdı. Bunu sonradan onun yanında olanlardan eşitdim. Sergey həlak olandan sonra düzü, Azərbaycanda qalmaq istəmədik. Fikirləşdik ki, burada heç kimi tanımırıq, bizim üçün burada yaşamaq çətin olar. Sergeyi öz doğulduğu yerdə dəfn elədik. İndi mən Azərbaycanı sanki öz vətənim bilirəm. Buradan ayrılmağı heç ağlıma da gətirmirəm. İki övladım var, düzdür, yanımda yaşamasalar da, tez-tez mənə baş çəkirlər".

Xocalı soyqırımına məruz qalanların qisası döyüş meydanında alındı. Vətən savaşında qəhrəman oğullarımız Xocalı qatillərini, insan cəlladlarını məhv etməklə günahsız soydaşlarımızın qanını yerdə qoymadılar. Möhtəşəm Qələbəmiz xocalılıların ürəyinə saplanan tikanları çıxartdı. Bununla da həmin şəhidlərin yaxınlarının, eləcə də bütün Azərbaycan xalqının ürəyinə su çilədilər. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

Belə qəhrəmanlar heç vaxt ölmür, əbədiyyətə qovuşurlar. Onlar həmişə bizim qəlbimizdə, qan yaddaşımızdadırlar. Qəhrəmanlar mənsub olduğu xalqın, dövlətin və bəşəriyyətin rifahı üçün əlindən gələni edən, bu yolda canından keçməyə hazır olan insanlardır.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli Fərmanı ilə Senyuşkin Sergey Aleksandroviç ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Bakının Xətai rayonunda küçələrdən biri onun adını daşıyır.

Sergey Senyuşkinin əziz xatirəsi xalqımızın qəlbində əbədi qalacaqdır.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**